Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionlarda nə var - bir zavodda minə yaxın adam işlə təmin olundu... sonra isə...

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**Regionların sosial və iqtisadi vəziyyətinin daha da gücləndirilməsi dövlətin əsas prioritetlərindəndir. Azərbaycanın hər yerində, iri şəhərlərində, azad ərazilərində sosial-iqtisadi inkişafa xüsusi diqqət yetirilir. Təkcə Bakıda və ətraf yerlərdə yox, paytaxtdan çox-çox kənarlarda da zavodlar, fabriklər, istehsalat müəssisələri açılır. Bu müəssisələr həm regionun iqtisadi inkişafını gücləndirir, həm də əhalinin işsizlik probleminin həllində mühüm rol oynayır. Açılan hər bir müəssisə, zavod, fabrik, sənaye parkı, sahibkarlıq subyekti yeni iş yeri deməkdir.**



Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, yeni iş yerlərinin yaradılması davamlı xarakter daşıyır və işləmək istəyən vətəndaş üçün iş var.

Prezident İlham Əliyev bildirib: "...İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə. İşsizlik aşağı səviyyədədir, ancaq işsizlər var və bu, hər bir ölkədə var. İnkişaf etmiş ölkələrdə bizdən də böyük faizlə ölçülən işsizlik var. Amma mənim sözüm odur ki, bu gün Azərbaycan kimi ölkədə, geniş imkanları olan ölkədə iş tapmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq, bəziləri bəlkə də onlara təklif olunan işlərlə razı deyillər, ona görə iş axtarmağa davam edirlər. Özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər".

Prezident xüsusi vurğuladı ki, işğaldan azad olunmuş ərazilərdə yeni iş yerləri yaradılıb və burada işləmək üçün şərait var.

Prezident İlham Əliyev Ağdərəyə və Tərtərə səfəri çərçivəsində burada görülən işlərlə tanış oldu, yeni infrastruktur layihələrinin təməlini qoydu, bura köçən keçmiş məcburi köçkünlərlə görüşdü.

Deputat Nigar Məmmədova bu barədə mətbuata deyib ki, Prezidentin sakinlərlə birbaşa səmimi dialoqu, onların həyatı, sosial və iqtisadi vəziyyəti ilə maraqlanması ölkə başçısının əhaliyə şəxsi qayğısının göstəricisidir. O bildirib ki, səfər çərçivəsində Tərtərdə yeni istifadəyə verilən Elektromexanika Zavodu regionun iqtisadi dirçəlişini və sənaye potensialının artırılmasını nümayiş etdirir. Bu, milli müdafiə sənayesinin inkişafı, yerli istehsalın təşviqi və strateji sahələrin gücləndirilməsi baxımından əhəmiyyət daşıyır. Ağdərədə istifadəyə verilən "Qozlukörpü" Su Elektrik Stansiyası isə modern enerji infrastrukturu kimi enerji təhlükəsizliyini gücləndirəcək, həmçinin yaşıl enerji istehsalına töhfə verəcək. Belə ki, bu tip stansiyalar ənənəvi enerji mənbələrinə alternativ olaraq yerli elektrik enerjisi istehsalını artırır, xarici enerji asılılığını azaldır. Ümumiyyətlə, su elektrik stansiyalarının fəaliyyəti nəticəsində regionda yüz milyonlarla kilovat-saat yaşıl enerji istehsal olunur. Bu stansiya yerli sənaye və xidmət sektorlarını dəstəkləməklə yanaşı, regionda investisiya mühitini də yaxşılaşdırır. Ağdərənin Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksi də işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların səmərəli və qanuni istifadəsinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Təməli qoyulan Xüsusi Əməliyyat Mərkəzi isə xüsusi təyinatlı bölmələrin fərqli relyef, hava və coğrafi şəraitlərdə hazırlıq keçməsini təmin edəcək kompleks təlimlər üçün nəzərdə tutulub. Azərbaycanın strateji əhəmiyyətli ərazilərindən biri olan Ağdərədə belə bir mərkəzin fəaliyyətə başlaması regionda təhlükəsizlik təminatı və çevik reaksiya sistemləri üçün əhəmiyyət kəsb edir.

Qeyd edək ki, Prezident İlham Əliyev Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.

Orada bildirilib ki, komplekse mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

1993-cü ildən Ermənistanın işğalı altında olan "Dəmirli" mis yatağı 2013-cü il mayın 13-dən etibarən təqribən 10 il ərzində qeyri-qanuni istismara məruz qalıb. O dövr üçün məlum olan 311 min ton çıxarılabilən mis ehtiyatının 218 min tonu, yəni 70 faizi qanunsuz şəkildə hasil edilib.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025-2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarılabilən həcmi dəqiqləşdiriləcək.

Kompleksdə ilkin mərhələdə 980 nəfər daimi işlə təmin olunub. Onlardan 260 nəfəri keçmiş məcburi köçkün, o cümlədən işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşlardır. Növbəti illərdə əksəriyyəti yerli icmaları təmsil edən vətəndaşlar üçün daimi iş yerlərinin sayının 1250-yə çatdırılması planlaşdırılır.

Göründüyü kimi, bölgələrdə əhalinin işlə təmin edilməsi əsas hədəflərdən biri kimi qarşıya qoyulub. Bu da onu göstərir ki, regionlarımız sosial-iqtisadi cəhətdən daha da inkişaf edəcək...

***İradə SARIYEVA***

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.*